# İlham Əliyev Azərbaycanın qlobal mövqelərini daha da gücləndirir

## Ermənistan isə regionda növbəti strateji iqtisadi layihədən də kənarda saxlanıldı

**Hələ Vətən müharibəsinə qədər Azərbaycanın Ermənistan üzərində əsas üstünlüklərindən biri bu ölkəni regiondakı bütün iqtisadi layihələrdən uzaq saxlamaq idi. Özünün işğal siyasətinin qurbanına çevrilən Ermənistan Cənubi Qafqaza inkişaf və rifah gətirən bütün iqtisadi layihələrdən məhz Azərbaycan tərəfindən təcrid edilmişdi.**

### Yeni kommunikasiya bağlantıları yaradılır

Xəstə erməni təfəkkürü bu gün də Ermənistanı mühüm iqtisadi dividendlərdən, gəlir imkanlarından məhrum edir. Söhbət ötən il Azərbaycanla İran arasında imzalanmış anlaşma memorandumuna əsasən, regionda yeni nəqliyyat bağlantısının yaradılmasından gedir. Belə ki, ötən ilin martın 11-də Azərbaycanla İran arasında İran ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu imzalanıb. Memorandumun məqsədi respublikamızın əsas hissəsi ilə Naxçıvan arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir. Həmin il sentyabrın 21-də isə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində İranla dövlət sərhədində inşa olunacaq Ağbənd avtomobil yolu körpüsünün təməlqoyma mərasimi keçirilmişdir.

Bir neçə gün əvvəl isə memorandum çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb. Yeni layihə hər iki tərəfə böyük iqtisadi dividendlər gətirəcək, Naxçıvanın respublikanın əsas hissəsi ilə etibarlı və davamlı bağlantısının yaradılmasında mühüm rol oynayacaq.

### Azərbaycan Orta dəhlizin imkanlarını artırır

Yeni kommunikasiya bağlantılarının yaradılmasında məqsəd Azərbaycanın əsas hissəsinin Naxçıvanla inteqrasiyasını təmin etmək, regionun nəqliyyat-kommunikasiya şəbəkəsində tarixi və strateji yeniliyə nail olmaqdır. Belə ki, bu layihə "Şərq-Qərb" nəqliyyat dəhlizinin potensialının artırılmasına əlavə imkanlar yaradacaq.

Xatırladaq ki, bu il sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentləri Naxçıvanda "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu imzalayıblar. Təbii ki, bu layihənin reallaşması Naxçıvanın iqtisadi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərəcək. Bununla yanaşı, bu dəmir yolu xətti layihəsi Azərbaycanın qlobal nəqliyyat dəhlizlərində iştirakını daha da gücləndirən mühüm addımlardandır. Çünki həm Naxçıvanla Türkiyə arasında dəmir yolunun inşası, həm də İranla imzalanan memorandum çərçivəsində Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında kommunikasiyaların yaradılması respublikamızdan keçməklə Orta dəhlizin imkanlarını artırır.



Həyata keçirilən bütün bu layihələr həm də qlobal məzmun daşıyır, Azərbaycanın nəqliyyat dəhlizlərindəki mövqelərini gücləndirir. Bu strateji yenilikdə isə Ermənistana yer yoxdur və göründüyü kimi, itirən yenə də bu ölkədir. Özünün destruktiv davranışlarının və Azərbaycanla sülhdən yayınmasının nəticəsi kimi Ermənistan yenə tarixi imkandan məhrum oldu, regiondakı növbəti qlobal iqtisadi layihədən də kənarda qaldı.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*